Azadlıq Radiosu

DÜNYA

# Seçki nəticələri təsdiqləndi, Tsarukyanın evində axtarışlar başladı

2 dəqiqə öncə




Qaqik Tsarukyan

"Çiçəklənən Ermənistan" partiyasının lideri, işadamı **Qaqik Tsarukyan**ın evinə hüquq-mühafizə orqanları axtarışa gəlib.

Bu barədə partiyanın mətbuat katibi **İveta Tonoyan** "Facebook" səhifəsində məlumat yayıb. Onun sözlərinə görə, təhlükəsizlik qüvvələri vəkilləri evə buraxmır.

Tsarukyana məxsus şirkətlərin ofislərində də axtarışlar gedir. Tonoyan yazır ki, "Multi Qrup" konserninə daxil olan şirkətlərin, demək olar, hamısında və həmin şirkətlərin direktorlarının evlərində irimiqyaslı axtarışlar aparılır.

İyunun sonunda Ermənistan Baş Prokurorluğu külli miqdarda vergidən yayınmaqda ittiham olunan Tsarukyana qarşı cinayət işinin açılması üçün Mərkəzi Seçki Komissiyasına (MSK) müraciət etmişdi.

Hələ seçki kampaniyası dövründə baş nazir **Nikol Paşinyan** Tsarukyanın ailəsinə məxsus "Ararat" sement zavodunu milliləşdirmək niyyətini açıqlamışdı. Paşinyan bu müəssisəni rəqibinin "biznesinin təməli", Tsarukyan və yaxınlarını isə "mafiya" adlandırmışdı. "Çiçəklənən Ermənistan"ın lideri isə cavab olaraq bu addımların onu qorxutmayacağını bəyan etmişdi.

## Konstitusiya Məhkəməsi seçki nəticələrini təsdiqlədi

Bu hadisələr Ermənistan Konstitusiya Məhkəməsinin iyunun 7-də keçirilən parlament seçkilərinin nəticələrini qüvvədə saxlaması fonunda baş verir. Məhkəmə MSK-nın iyunun 14-də qəbul etdiyi yekun qərarı qanuni hesab edib.

Konstitusiya Məhkəməsi iyunun 26-da yeddi siyasi qüvvənin şikayəti əsasında birləşdirilmiş icraata baxmağa başlamışdı. İddiaçılar arasında milyarder **Samvel Karapetyan**ın "Güclü Ermənistan" bloku, eks-prezident **Robert Koçaryan**ın "Ermənistan" bloku və **Tsarukyan**ın "Çiçəklənən Ermənistan" partiyası da var idi.

Tsarukyanın partiyası nəticələri ləğv edilmiş üç seçki məntəqəsində MSK-nın təkrar səsvermə keçirməmək qərarından şikayətçi idi. Seçkilərin yekunlarına görə, partiyanın parlamentə daxil olmaq üçün tələb olunan 4 faizlik səs baryerini keçməsinə cəmi 200-dən az səs çatmamışdı.

Rəsmi nəticələrə əsasən, Paşinyanın rəhbərlik etdiyi hakim "Vətəndaş Müqaviləsi" partiyası səslərin təxminən 50 faizini qazanaraq hökuməti təkbaşına formalaşdırmaq hüququnu qoruyub. İkinci yeri 23 faiz səslə "Güclü Ermənistan", üçüncü yeri isə 10 faizə yaxın səslə "Ermənistan" bloku tutub.

"Ermənistan" və "Güclü Ermənistan" blokları da daxil olmaqla, altı müxalif siyasi qüvvə seçki nəticələrini tanımır. Onlar iddia edirlər ki, müxalifətə qarşı siyasi təzyiqlər olub, səslərin hesablanmasında qanunsuzluqlara yol verilib və inzibati resurslardan istifadə edilib. Ermənistan hökuməti isə bu ittihamları rədd edir.


## Buna da bax:

Ermənistan xaricdəki vətəndaşların seçki hüququnu məhdudlaşdırdı

Paşinyana qarşı üçlü ittifaq: Karapetyan, Koçaryan və Tsarukyan birləşir

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur